# Ürəklərdə yaşayan insan

**Millətin görkəmli şəxsiyyətləri, istedadlı oğulları onun ən qiymətli sərvətidir. Azərbaycan xalqı öz tarixi ərzində çox böyük şəxsiyyətlər yetirib. Onların hər birinin öz yeri, özünəməxsus xidmətləri var. Sosialist Əməyi Qəhrəmanı, görkəmli ictimai xadim İbrahim Qurbanov da ötən əsrin ən parlaq simalarından biri idi. O öz xalqına gərəkli, mənalı bir ömür yaşadığı üçün el-obada nüfuz və hörmət qazanmışdır. İnsanların qəlbində yer tapmaq ulu Tanrı tərəfindən ona bəxş olunan ilahi bir məhəbbət idi. İbrahim Qurbanovun həyat yolu xeyirxahlıq, kamillik, mənəvi yetkinlik zirvəsinə bənzəyir.**

Yetmişinci illər və səksəninci illərin əvvəlləri. Bu dövr Azərbaycan adlı bir məmləkətin taleyinə qızıl hərflərlə həkk olunub. İqtisadiyyatın yüksəlişi, xalqın həyat tərzinin yaxşılaşması, respublikamızın tanınması məhz bu illərlə bağlıdır. Onda hər yerdə həyat qaynayırdı, adamlarda qurub-yaratmaq eşqi coşmuşdu. İbrahim Musa oğlu Qurbanov da öz dəst-xətti ilə dərin, silinməz izlər qoydu, öz zəhməti, hünəri ilə özünə şan-şərəf heykəli ucaltdı.

Əgər İbrahim Qurbanov yaşasaydı, ömrünün 90 ili tamam olardı. Sosialist Əməyi Qəhrəmanı İbrahim Qurbanov ömrünü-gününü torpağa, bərəkətə, abadlığa, tərəqqiyə sərf edən, qeyri-adi enerji sahibi olan bir insan idi. Polad intizamı sevən, özünə və başqalarına eyni dərəcədə tələbkar olan bu adamın sinəsində insanları xoşbəxt, firavan, asudə görmək eşqi ilə yanan bir ürək döyünürdü.

İbrahim Qurbanov 1925-ci ilin baharında Qərbi Azərbaycanın Əzizbəyov rayonundakı Terp kəndində dünyaya göz açmış, 1944-cü ildə Əzizbəyov Rayon Komsomol Komitəsinin ikinci katibi, rayon Partiya Komitəsinin təlimatçısı işləmiş, 1948-ci ildə təhsil almaq üçün Azərbaycan KP MK yanında ikiillik respublika Ali Partiya Məktəbinə göndərilmiş, partiya təhsili aldıqdan sonra Azərbaycan KP Əli Bayramlı Rayon Komitəsində kənd təsərrüfatı şöbəsinin müdiri təyin edilmişdi.

Qəlbi qurub-yaratmaq eşqi ilə döyünən, Vətənini, yurdunu dərin məhəbbətlə sevən bu insan sonralar Əli Bayramlı rayonundakı Vladimirsk MTS partiya təşkilatının katibi, Əli Bayramlı Partiya Komitəsinin katibi vəzifəsinə seçilmişdir.

Xalqın yüksək etimadını qazanan, el gözündə pillə-pillə ucalan, Azərbaycanın iqtisadiyyatının yüksəldilməsinə tükənməz enerji sərf edən, yüksək təşkilatçılıq bacarığı olan İ.Qurbanov 1957-ci ildən 1961-ci iədək Bakı Ali Partiya Məktəbinin dinləyicisi olmuş, məktəbi bitirdikdən sonra Əli Bayramlı rayonundakı 6 nömrəli sovxozun istehsalat idarəsinin rəisi, Salyan rayonundakı SSRİ-nin 50 illiyi adına 1 nömrəli pambıqçılıq sovxozunun direktoru vəzifələrində çalışmış, S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam etdirmişdir.

Respublika ictimaiyyəti arasında dərin nüfuz qazanmış İbrahim Qurbanov 1973-cü ildə Salyan Rayon XDS İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkilmiş, 1977-ci ildə Azərbaycan KP Neftçala Rayon Komitəsinin birinci katibi seçilmiş və fədakar əməyinin müqabilində 1980-ci ildə Azərbaycan KP Cəlilabad Rayon Komitəsinin birinci katibi vəzifəsinə təyin olunmuşdur.

İbrahim Qurbanov Neftçalaya birinci katib təyin olunanda Azərbaycanın Xəzərə söykənmiş bu ucqar qəsəbəsinə heç şəhər də demirdilər. Qısa müddətdə bu yerlər yaraşıqlı, gözəl, romantik mənzərəyə malik olan bir diyara çevrildi. Kürün üstündə Bankə qəsəbəsi ilə Neftçala şəhərini birləşdirən, xalqın "İbrahim körpüsü" adlandırdığı körpünün də müəllifi İbrahim Qurbanovdur.

İ.M.Qurbanov Azərbaycan KP MK-nın üzvü, doqquzuncu, onuncu və on birinci çağırış respublika Ali Sovetinin deputatı kimi fəal ictimai-siyasi iş aparmışdır.

Dəyərli ziyalı, kamil insan, hər əməli saf, bulaq suyu tək şəffaf, duru olan İbrahim Qurbanovun fədakar əməyi, xidmətləri Sosialist Əməyi Qəhrəmanının Qızıl ulduzu, Lenin ordeni, üç Qırmızı Əmək Bayrağı ordeni və medallarla qiymətləndirilmişdir.



İbrahim Qurbanov Cəlilabadda rayon partiya komitəsinin katibi işlədiyi illərdə bu yerləri şəhərə çevirdi, öz qədəmləri, məqsədyönlü fəaliyyəti ilə rayona xeyir-bərəkət gətirdi. Bu, həqiqətən də, belə idi. Elə bil Allah göydən ruzi tökürdü, insanlar firavan dolanırdı. Cəlilabad az müddətdə respublikada ən böyük üzümçülük rayonuna çevrilmişdi. Üzüm istehsalı 60 min tondan 261 min tona çatmışdı. Respublika, eləcə də mərkəzi mətbuatda mavi ekranlarda Cəlilabadın qəhrəman üzümçülərinin misilsiz qələbəsinə geniş yer ayrıldı. "Pravda" qəzetində Cəlilabad üzümçülərinin rekord göstəricilərindən bəhs edən "Temp" sərlövhəli irihəcmli məqalə dərc olundu.



İbrahim Qurbanovun əmək uğuru, çalışdığı postda ayıq-sayıq dayanması o dövrdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışan Heydər Əliyevi qane edirdi.

İbrahim Qurbanov Cəlilabadda birinci katib işlədiyi dövrdə rayonda rəhbər vəzifələrdə çalışanların çoxunun səriştəli kadr kimi yetişməsində böyük zəhmət çəkib. İşləməyi də bacarırdı, işlətməyi də. Tələbkarlığı da vardı, qayğıkeşliyi də. Qəzəbi yaz yağışına bənzərdi: ötəri, müxtəsər. Bu müdrik insan xalq arasından çıxmışdı, xalqın adamıydı. İstər rəsmi iclaslar olsun, istərsə də xalq arasında, sadə, qısa danışardı, həmişə sözü ilə əməli düz gələrdi.

Xalq şairi Məmməd Araz respublikanın dinamik inkişafında İbrahim Qurbanovun böyük zəhməti olduğunu belə qiymətləndirmişdir: "Azərbaycan xalqı öz tarixi ərzində çox böyük şəxsiyyətlər yetirib. Onların hər birinin öz yeri, özünəməxsus xidmətləri var. İbrahim Qurbanov da ötən əsrin ən parlaq simalarından biri idi. O, üç inkişaf etmiş Azərbaycan şəhərinin abadlaşmasında, yenidən tikilməsində əvəzsiz rol oynayıb..."

Sosialist Əməyi Qəhrəmanı, ürəklərdə işıq heykəlinə çevrilən İbrahim Qurbanovu rəhbər vəzifəyə ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev irəli çəkmişdi. İ.Qurbanov dahi insan, dünya şöhrətli siyasətçi olan Heydər Əliyevi, onun xalqımız qarşısındakı xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Çalışırdı ki, bu dahi insanın etimadını ləyaqətlə doğrultsun. Deyirdi ki, Heydər Əliyev bizim fəxrimizdir, onun nuru türk dünyasını işıqlandırır. Ulu Tanrı onu bu xalqa xilaskar göndərib.

İbrahim Qurbanov səmimi, etibarlı olduğuna görə onun çoxlu dostları vardı. O, SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginlə də dost idi. Danışırdı ki, bir dəfə Şimali Qafqazda —kurort şəhəri kimi dünyada tanınan Kislovodskda Sov. İKP MK-nın işçiləri üçün tikilən "Qırmızı daş" müalicə ocağında dincəlirdim. Səhər-səhər gəzintiyə çıxmışdım, cığırla gedirdim. Bir də baxdım dedilər:"Yol ver, yol ver". Mən yoldan çıxana kimi bir nəfər qoluma girdi. Dedi ki, ona dəyməyin. Tanış olduq. Öyrəndim ki, SSRİ-nin yüngül sənaye naziri A.N.Kosıgindir. Mən də adımı, Salyanda sovxoz direktoru işlədiyimi bildirdim. Sən demə bizim təsərrüfat pambıq planını Azərbaycanda birinci yerinə yetirdiyinə görə Kosıgin sovxozumuz barədə yetərincə məlumatlı imiş. Xeyli söhbət etdik, at mindik. Axşam məni şam yeməyinə çağırdı. Getmək istəmirdim. Ancaq arxamca adamlarını göndərdi. Birlikdə çörək kəsdik, aramızda mehriban münasibətlər yarandı.

Aradan bir az keçmiş o, SSRİ Nazirlər Sovetinin sədri vəzifəsinə irəli çəkildi. Yadından çıxmamışdı. Moskvada Heydər Əliyevlə görüşəndə məni soruşub, haqqımda xoş sözlər söyləyib. Deyib ki, İbrahim Qurbanov bacarıqlı kadrdır, ona qayğı göstər.

Biz İbrahim Qurbanovun 90 illiyi ilə bağlı onun dostları, doğmaları ilə görüşüb onların dedikərini olduğu kimi qələmə aldıq.

**Abbasəli Novruzov** (istefada olan general-mayor):

—İbrahim Qurbanovu hələ uşaqlıqdan tanıyırdım. Onunla ilk görüşüm 1964-cü ildə Yardımlı qəsəbəsində oldu. Mən gənc leytenant idim. Sərhəd qoşunlarında xidmət edirdim. Layiqli zabit olmaq, yüksək hərbi rütbəyə çatmaq üçün mənə tövsiyə və göstərişlər verdi.

İbrahim Qurbanovla Neftçala və Cəlilabad rayonlarında birinci katib işləyərkən tez-tez görüşürdük. O gözəl insan məni həmişə təmizliyə, "Azərbaycan xalqının siyirmə qılıncı" olmağa çağırırdı.

Bir dəfə keçmiş SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini S.Sviqunu qarşılamaq üçün Göytəpə sərhəd dəstəsinin həyətində sərhəd qoşunlarının kəşfiyyat şöbə rəisləri sıraya düzülmüşdü. Sviqun bir-bir hamı ilə əl verib görüşür, biz isə hərbiçi kimi vəzifəmizi və familiyamızı ona deyirdik. Sviqunla gələn İbrahim Qurbanov da hamı ilə görüşürdü. Onlar mənə çatmamış İbrahim müəllim keçdi Sviqundan qabağa və məni bərk-bərk qucaqladı. Sviqun: "A poçemu tolko eqo" deyə zarafat etdikdə İbrahim Qurbanov: "On sın moeqo naroda i mejdu proçim xoroşiy sın"-deyə cavab verdi:

İbrahim Qurbanovu Qərbi Azərbaycandan qaçqın düşmüş insanların taleyi çox narahat edirdi. Ermənistandan 200 mindən çox azərbaycanlının 1988-ci ildə zorla qovulmasına heç cür dözə bilmirdi. Qəlbi həmişə Dərələyəzdə, Vedidə, Zəngibasarda, Ağbabada, Göyçə mahalında, Zəngəzur ellərində idi...

**Zeynəb Xanlarova** (millət vəkili, xalq artisti):

—İbrahim Qurbanov Azərbaycanımız üçün işlər gördü. Sənət yoldaşlarım onun haqqında ağızdolusu danışırdılar. Sənətə, sənətkara yüksək qiymət verirdi. Özüm həmişə bunun şahidi olmuşam. Yadımdadır, Mədəniyyət Nazirliyinin xətti ilə mən də Neftçalaya getmişdim. İbrahim müəllim bizi böyük hörmətlə, izzətlə qəbul etdi. Konsert proqramımız çox uğurla keçdi. Konsertdən sonra birinci katib İbrahim Qurbanov bizi Neftçala ilə tanış etdi, yeni tikililəri göstərdi. Hara baxırdınsa, həyat qaynayırdı, şəhər tikinti meydançasını xatırladı. Axırda gəmi ilə Kür çayına, çayın Xəzər dənizi ilə qovuşan yerinə baxdıq.

1980-ci ildə İbrahim müəllim Cəlilabada göndərildi. Az vaxtda şəhər gözəllik libasına büründü. Mən onun dəvəti ilə dəfələrlə Cəlilabadda oldum. İbrahim Qurbanovun işgüzarlığına heyran qaldım. Bu insan hara gedirdisə, xariqələr yaradır, oranı cənnətə döndərirdi...

**Oqtay Rza** (şair):

—İbrahim müəllim rəhbər vəzifələrdə çalışdığı illərdə neçə-neçə tikilinin həm təşəbbüskarı, həm də qurucusu olub. Neftçala və Cəlilabadın tamamilə yeniləşib şəhər halına salınmasında, xüsusilə üzüm istehsalı sahəsində rekord göstəricilərə nail olmasında onun xidmətləri misilsizdir. O, Azərbaycanın iqtisadi yüksəlişinə nail olmaq üçün nələr etmirdi. Bu isə ulu öndərimiz Heydər Əliyevi qane edirdi.

İbrahim Qurbanov Neftçalada işlədiyi dövrdə Kürün üstündə möhtəşəm körpü saldırdı. Bu gün də yerli sakinlər onu "İbrahim körpüsü"adlandırırlar. Bir şair kimi həmin körpü haqqında şeir yazdım. İbrahim Qurbanovun ömrünün 90 illiyi ilə bağlı ürək sözlərimi yazarkən düşündüm ki, "Körpü" şeirindən bəzi məqamları oxucularla yarı bölüm:

*Körpüyə baxıram - vüqarlı, göz-göz,*
*Sahili-sahilə birləşdirən qol,*
*Körpü küsənləri barışdıran söz,*
*Yerdən kəhkəşana doğru gedən yol.*
*Körpü salınanda neçə sevənin*
*Fərəhi, duyğusu coşub-daşıbdır,*
*O taydan bu taya oğlan evinin,*
*Gəlin gətirməyi asanlaşıbdır.*

**Pənah Qurbanov** (5 saylı Vergilər İdarəsinin rəis müavini, İbrahim Qurbanovun oğlu):

—Atam çox tələbkar və ciddi adam idi. İntizamsızları və tənbəlləri görməyə gözü yox idi. İstər evdə, istərsə də işlədiyi kollektivdə səliqə-sahman yaratmaq üçün bütün varlığı ilə çalışırdı.

Ailə üzvlərimiz süfrə başında olanda o, həmişə bizə deyirdi:

—Çalışın, dünyada öz xeyirxah əməllərinizlə bir iz qoyasınız. İnsanlara əl tutun. Bu gün ermənilərin tapdağı altında olan ata-baba yurdumuz Dərələyəz mahalını unutmayın, o yerlərə qayıtmaq eşqi ilə yaşayın..

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələr, ermənilərin nankorluğu atamı bərk sarsıtmışdı. O, ancaq qəlbindən süzülüb gələn bu sözləri insanlarla yarı bölürdü:

—Heydər Əliyev hakimiyyətə gətirilməsə, bizi daha məşəqqətli günlər gözləyir.

Bununla bağlı respublikamızın ağsaqqalları ilə görüşüb öz məsləhətlərini verərdi.

Atamın 7 övladı bu gün özünü xoşbəxt sanır. Çünki atamın arzularının çin olduğu günləri gördük. O, cismən bizim aramızda olmasa da, hər yerdə, hər addımbaşı atamın yeri görünür. O, həyatdan vaxtsız getsə də, həmişə insanlar onu dahi bir şəxsiyyət kimi xatırlayır, memarı olduğu böyük quruculuq işləri dillərdə gəzir...

Dünyada izi qalan, xoş əməlləri olan İbrahim Qurbanov 1992-ci ildə dünyasını dəyişmiş, son nəfəsində ata yurdu Dərələyəzi, düşmən tapdağında olan Terp kəndini xatırlamışdır. Dünya bir pəncərədir, - deyiblər. Lakin Sosialist Əməyi Qəhrəmanı İbrahim Qurbanov başqaları kimi bu pəncərənin önündən sadəcə ötüb keçməmişdir. Ayaq saxlayıb bu pəncərədən diqqətlə dünyanı seyr etmiş, ömür payını başa vurmazdan öncə dünya pəncərəsinin çərçivəsini əlvan naxışlarla bəzəmiş və bir dəstə bahar çiçəkləri qoyub getmişdir ki, özündən sonra gələnlərə o çiçəklərin ətri xoş ovqat bəxş eləsin!..

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**